**BEYNƏLXALQ SEÇKİ MÜŞAHİDƏSİ MİSSİYASI**
**Azərbaycan Respublikası – Prezident seçkiləri, 15 oktyabr 2008-ci il**

# İLKİN FAKTLAR VƏ NƏTİCƏLƏR HAQQINDA BƏYANAT

**Bakı, 16 oktyabr 2008-ci il -** Azərbaycan Respublikasında 15 oktyabr 2008-ci il tarixli prezident seçkilərini müşahidə edən Beynəlxalq Seçki Müşahidəsi Missiyası (BSMM) ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları üzrə Bürosunun (ATƏT / DTİHB), Avropa Şurası Parlament Assambleyasının (AŞPA) və Avropa Parlamentinin (AP) birgə fəaliyyətidir.

Seçkilər ATƏT və Avropa Şurası qarşısında demokratik seçkilər sahəsində götürülmüş öhdəliklər və standartlara, eləcə də Azərbaycanın qanunvericiliyinə uyğunluğu baxımından qiymətləndirilir. İlkin faktlar və nəticələr haqqında bəyanat seçki prosesinin başa çatmasından öncə verilir. Seçkilərin yekun qiymətləndirilməsi müəyyən mənada seçki prosesinin qalan mərhələlərinin aparılmasından, o cümlədən nəticələrin göstərilməsi və elan edilməsi, eləcə də seçki günündən sonra mümkün ola biləcək şikayətlər və ya apelyasiyaların baxılmasından asılı olacaqdır. ATƏT/DTHİB seçki prosesinin başa çatmasından təxminən iki ay sonra hərtərəfli yekun hesabatını, eləcə də potensial yaxşılaşdırma işləri üçün tövsiyələrini verəcəkdir. Avropa Şurası Parlament Assambleyasının nümayəndə heyəti öz hesabatını növbəti plenar sessiyada təqdim edəcəkdir.

BSMM-də təmsil olunmuş təsisatlar Azərbaycan Respublikasının hakimiyyət orqanlarına göstərdiyi əməkdaşlığa görə minnətdardır və demokratik seçkilərin keçirilməsi məqsədilə öz dəstəyini davam etdirməyə hazır olduğunu bildirir.

## İLKİN NƏTİCƏLƏR

Konstitusiya müddəalarında tələb olunduğu qaydada Azərbaycan Respublikasındakı prezident seçkiləri 15 oktyabr 2008-ci ildə keçiriləcəyi elan edilmişdir. Seçkilər ATƏT və Avropa Şurası qarşısında götürülmüş öhdəliklərə və digər beynəlxalq standartlara doğru gözəçarpan irəliləyişi nümayiş etdirdi, lakin bütün öhdəliklərə cavab vermədi. Seçki prosesi dinc şəkildə keçirilmiş, lakin əsl rəqabətin və medianın işıqlandırdığı gözəçarpan siyasi müzakirələrin çatışmaması ilə xarakterizə olmuş və beləliklə, mənalı və plüralist demokratik seçkilərin bütün prinsiplərini əks etdirməmişdir. Əfsuslar olsun ki, bəzi müxalifət partiyaları bərabər imkanlara qoyulan uzun müddətli maneələri səbəb kimi gətirərək, seçkiləri boykot etmiş və beləliklə, elektoratın mənalı seçim etmək miqyasını daha da məhdudlaşdırmışdır.

Hakimiyyət orqanları bütün namizədlər üçün daha bərabər şəraitlərin yaradılması məqsədilə müəyyən səyləri göstərmişlər; bununla belə, hazırkı prezidentin elektron mediada üstünlüklə nümayiş etdirilməsi, eləcə də hakim partiyanın rəsmi strukturlarla bəzi hallarda birgə çıxış etməsi yarışma səviyyəsinin yaradılmasına xidmət etməmişdir. Hazırkı prezident digər namizədlərə daha çox imkanları vermək arzusunu bildirərək, şəxsən kampaniyanı aparmamaq qərarına gəldi. Digər namizədlər aydın şəkildə kiçik ictimai dəstəyə nail ola bildi və bundan əlavə, onların əsas hissəsi seçicilərə alternativ fikirləri effektiv şəkildə təqdim etmək məqsədilə milli səviyyədə kampaniya aparmaq strukturlarına malik deyildilər.

Bütövlükdə, Mərkəzi Seçki Komissiyası (MSK) seçkiləri bacarıqlı şəkildə təşkil etmiş, media və müşahidəçilərin üzünə açıq olan dövri iclaslarını keçirmiş, qəbul etdiyi qərarlarını özünün internet səhifəsində yerləşdirmiş və geniş miqyaslı seçicinin maariflənrilməsi kampaniyasını və seçki rəsmiləri üçün əhatəli təlim kurslarını aparmışdır.

Ümumiyyətlə, seçki kampaniyası zəif olmuş, müşahidəçilərin məhdud ictimai marağın olduğunu qeyd etmişlər. Namizədlərə böyük maneələr olmadan öz mesajlarını çatdırmaq imkanının verilməsinə baxmayaraq, bəzi rayonlarda hakim Yeni Azərbaycan Partiyasının (YAP) fəaliyyətindən başqa digər seçki kampaniyası pərakəndə aparılmış və ya ümumiyyətlə aparılmamışdır. Təsdiqlənmiş iddialar mövcud olmuşdur ki, insanlar, o cümlədən tələbələr və müəllimlər YAP-ın bəzi kampaniya tədbirlərində iştirak etməyə məcbur edilmişlər.

Son illər ərzində medianın ümumi durumu ağırlaşmışdır. Elektron media seçki kampaniyasını tarazlı şəkildə işıqlandırmamışdır və beləliklə, elektoratın məlumatlandırılmış seçim imkanını məhdudlaşdırmışdır. Əsas televiziya kanallarında seçki kampaniyası xəbərlər proqramında məhdud şəkildə yayımlanmışdır. Proqramların əksər hissəsi hazırkı dövlət başçısının xeyrinə olan dövlət qurumların fəaliyyətinə həsr edilmişdir.

Seçki günü ümumiyyətlə sakit və dinc keçmişdir. BSMM müşayidəçilərin verdiyi hesabatlarda seçicilər böyük sayla seçkilərə gəlməsi qeyd olunur; MSK bu göstəricinin 75.6 faiz səviyyəsində olduğunu bəyan etmişdir. MSK oktyabrın 16-da səhər saat 2-yə qalmış təxminən 2.300 seçki məntəqəsindən alınan nəticələri özünün internet səhifəsində yerləşdirmiş və seçki gecəsi ərzində onların yeniləşməsini davam etdirmişdir.

Səfər edilmiş seçki məntəqələrinin 88 faizində açılış prosedurları müsbət qiymətləndirilmişdir. Bununla belə, prosedural çatışmazlıqlar, o cümlədən seçki qutularında möhürlərin seriya nömrəsinin qeyd edilməməsi tez-tez qeydə alınmışdır. BSMM müşahidəçiləri səfər etdikləri seçki məntəqələrinin 94 faizində səsvermə prosesinin yaxşı və ya çox yaxşı kimi qiymətləndirmiş, onu ümumiyyətlə yaxşı və etibarlı şəkildə təşkil olunduğunu qeyd etmişlər. MnSK və seçicilər tərəfindən prosedurların qavranılması müsbət kimi qiymətləndirilmişdir. Seçici siyahıların yaxşılaşdırılmış keyfiyyəti əlavə siyahılara az sayda seçicilərin yazılması ilə nümayiş etdirilmişdir.

Seçki prosesinin müsbət aspektləri aşağıdakıları əhatə edir:

- Seçki Məcəlləsinə edilmiş son düzəlişlər əvvəlki tövsiyələri, xüsusən də seçici barmağının mürəkkəbə batırılmasına dair müddəaları, seçici siyahılarının şəffaf olması və seçki prosesinə müdaxilələrin qadağan olunmasını qismən nəzərə almışdır;
- İctimai TV və radioda dövri debatların keçirilməsi namizədlərə öz mesajlarını seçicilərə çatdırmaq imkanını yaratmışdır, lakin hazırkı prezidentin həmin müzakirələrdə iştirak etməməsi onların seçicilər üçün dəyərini azaltmışdır;
- Seçki kampaniyasının başlanmasından əvvəl, Prezident bütün ölkədə öz rəsmi portretlərini və lövhələrdəki şəkilləri çıxarmaq göstərişini vermişdir və bildirmişdir ki, bütün namizədlər üçün bərabər seçki kampaniyası şəraitlərin təmin edilməsi zəruridir;
- Seçki kampaniyası zorakılıq olmayan mühitdə aparılmışdır;
- Hakimiyyət orqanları tərəfindən seçkinin idarə edilməsi işinə müdaxiləsi məhdud görünürdü;

- Seçicilərin siyahıları hüquqi vaxt çərçivəsində ictimaiyyətin nəzərinə təqdim olunmuşdur. Seçicilər siyahılarında ciddi problemlər və ya qeyri-düzgünlüklər müşahidə olunmamışdır;
- Prosesin şəffaflığı çox saylı yerli bitərəf və beynəlxalq müşahidəçilərin akreditasiyası ilə gücləndirilmişdir.

Lakin, aşağıdakı əlavə çatışmazlıqlar qeydə alınmışdır:

- Seçki komissiyaların tərkibi məsələsinin həllinə yönəlmiş təkrar və uzun müddətli tövsiyələrə baxmayaraq, onların tərkibi siyasi partiyaların geniş etimadını qazanmamışdır;
- Seçki Məcəlləsinə edilmiş son düzəlişlər bəzi həll olunmamış və narahatlıq doğuran məsələləri, o cümlədən namizədlərin qeydə alınması, media tərəfindən prosesin işıqlandırılması, şikayətlər və apelyasiya prosedurları tam şəkildə həll etməmişdir; bəzi hallarda, bunlar Məcəllə ilə digər müvafiq qanunlar arasında uyğunsuzluqlarla nəticələnmişdir;
- Hazırkı prezident şəxsən seçki kampaniyasını aparmamışdır, lakin o, hərtərəfli şəkildə öz rəsmi vəzifəsində olaraq ölkənin bölgələrinə səfərlər etmişdir və yeni zavodların, yolların, məktəblərin və digər obyektlərin açılışında iştirak etmişdir. Həmin səfərlərin geniş şəkildə mediada işıqlandırılması onun rəsmi fəaliyyəti ilə kampaniyası arasında olan fərqi zəiflətmişdir;
- Bakı şəhərinin icra hakimiyyəti seçkilərdə iştirak etməyən müxalifət partiyaların Bakının mərkəzində açıq havada mitinq keçirmək vəsatətini rədd etmişdir;
- Hərbçilər arasında səsvermənin təşkili seçki orqanlarının tam nəzarəti altında deyildi;
- Şikayətlərin az sayda olmasına baxmayaraq, MSK bütün şikayətlər üzrə qanunla nəzərdə tutulan vaxt çərçivəsində qərarları çıxara bilməmişdir. Şikayətləri araşdırmaq məqsədilə seçki komissiyaları daxilində yeni yaradılmış ekspert qrupları əsasən komissiya üzvləri və işçilərindən ibarət olmuş və beləliklə, onların fakt araşdırıcı bacarıqlarını nəzərdə tutulan qaydada artırmamışdır.
- Qeydiyyatı ləğv edilmiş Seçki Monitorinqi Mərkəzinin bir neçə yerli müşahidəçilərinə hətta fərdi qaydada müşahidə etmək imkanın verilməsinə baxmayaraq, bu təşkilatla müşahidə səylərini davam etdirməmək üçün təzyiqə məruz qalmışlar.
- Seçki günü, həm seçki məntəqələrinin açılması, həm səsvermə zamanı, xüsusən də, təkrar səsvermənin qarşısının alınmasına yönəlmiş mürəkkəbə batırılma prosedurların qeyri-ardıcıl şəkildə tətbiqində prosedur baxımından çatışmazlıqlar olmuşdur. Səsvermə zaman ciddi pozuntular halları, o cümlədən seçici siyahılarında oxşar imzalar və səsvermədə məxfiliyin pozulması halları mövcud olmuşdur.

Səsvermədən fərqli olaraq, hesablama daha çox mənfi kimi qiymətləndirilmişdir, o cümlədən bir çox hallarda gözəçarpan prosedural çatışmazlıqlar və bəzi hallarda açıq manipulyasiyalar müşahidə olunmuşdur. BSMM demək olar ki, bütün DSK-larda nəticələrin göstərilməsi prosesini müşahidə etmişdir. Nəticələrin göstərilməsi həmçinin mənfi kimi qiymətləndirilmiş, qarışıq və qeyri-şəffaf tədbirlər bir çox hallarda qeydə alınmışdır.

# İLKİN FAKTLAR

## Tarixçə

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası (MSK) Konstitusiya müddəalarına uyğun olaraq, iyulun 30-da prezident seçkilərinin 2008-ci il oktyabrın 15-də keçiriləcəyini bəyan etmişdir. Prezident beş il müddətinə xalq səsverməsi yolu ilə seçilir və o, davamlı şəkildə iki müddətdən çox vaxta bu vəzifədə xidmət edə bilməz. Prezident verilmiş səslərin mütləq çoxluğu ilə seçilir; əgər namizədlərdən heç biri verilən səslərin yarısından çoxunu toplaya bilmirsə, onda seçkilərin ikinci raundu keçirilir. Bu seçkilər 1995-ci ildə qəbul edilmiş cari Konstitusiya əsasında keçirilən üçüncü prezident seçkiləridir. Hazırkı Prezident İlham Əliyev 2003-cü ildə səslərin 77%-i ilə ilk dəfə seçilmişdir.

2005-ci ildə keçirilmiş parlament seçkilərindən sonra, hökumət ilə müxalifət arasında münasibətlər olduqca qütbləşmiş formada olaraq qalmış, hər iki tərəf arasında dialoq demək olar ki, mövcud deyil. Müxalifətin bir qismi onları narahat edən məsələlərin bəzilərini həll etməyən Seçki Məcəlləsinə edilmiş son əlavələri, o cümlədən onların fikrincə, seçki prosesinə, xüsusən də effektiv şəkildə seçki kampaniyasını aparmaq imkanlarına mənfi təsir göstərən digər qalan əlavələri səbəb kimi gətirərək, bu seçkiləri boykot etmişdir.

## Hüquqi çərçivə

Azərbaycandakı prezident seçkiləri əsasən Konstitusiya və Seçki Məcəlləsi ilə tənzimlənir. Sonuncu dəfə, həmin Məcəlləyə əlavələr 2008-ci ilin iyun ayında edilmişdir. Dəyişikliklərin bəzilərində ATƏT / DTİHB-nin və Avropa Şurası yanında Qanun əsasında Demokratiya Uğrunda Komissiyasının (yəni, Venesiya Komissiyasının) dövlət orqanlarının rəsmiləri və yerli icra hakimiyyət orqanları tərəfindən seçki prosesinə qanunsuz olaraq müdaxiləsini aydın şəkildə qadağan edən və seçicilərin barmaqlarının mürəkkəbə batırılması kimi əvvəlki tövsiyələri nəzərə alınmışdır.

Seçkidə marağı olan bütün dairələrin etimadını qazanmaq və hökumətə yaxın qüvvələrin tərəfindən üstünlüyə yol verməmək məqsədilə seçki komissiyaların tərkibi ilə bağlı düsturun yenidən baxılması haqqında Venesiya Komissiyası ilə ATƏT / DTHİB-nin tövsiyələrinə baxmayaraq, bu məsələ sonuncu əlavələrdə öz əksini tapmamışdır[1]. Həmçinin nəzərə alınmamış və ya qismən nəzərə alınmış tövsiyələr isə, aşağıdakılara aiddir: namizədlərin qeydiyyatı, hərbçilərin səsverməsi, şikayətlər və apelyasiya prosesi və nəticələrin etibarsız hesab edilməsi. Əlavələrin bəziləri hər hansı əvvəlki tövsiyələrlə, o cümlədən dövlət tərəfindən maliyyələşdirilən AzTV kanalının namizədlər üçün bərabər seçki kampaniyası şəraitlərini təmin etmək kimi hüquqi öhdəliyini aradan qaldıran əlavə ilə bağlılığı yoxdur. Bu əlavə seçki ilə bağlı olan məlumatın həcmini və seçicilərə siyasi fikirlərin çatdırılmasını məhdudlaşdırır. Digər bir əlavəyə uyğun olaraq, seçki nəticələri haqqında protokolların doldurulmasını və səslərin hesablanmasını sadələşdirmək məqsədilə səsvermə prosesindən zərflərin çıxarılması nəzərdə tutulurdu.

---

[1] Venesiya Komissiyası və ATƏT / DTHİB-nin 1 iyun 2004-cü il tarixli "Azırbaycan Respublikasında Seçki Qanunu və Seçkinin keçirilməsinə dair birgə tövsiyələrinə" və 16 iyun 2008-ci il tarixli "Azərbaycan Respublikasının Seçki Məcəlləsinə Əlavələr və Dəyişikliklər haqqında Qanun Layihəsi ilə bağlı Birgə Rəy" sənədinə bax. Sənədlər ilə aşağıdakı internet səhifədə tanış olmaq olar: www.osce.org/odihr-elections/13447.html

Məcəllədə hələ də bəzi ziddiyyətlər və ikimənalı məqamlar mövcuddur. Mülki Prosesual Məcəllə kimi bəzi digər müvafiq qanunlara uyğunsuzluqların olmaması məqsədilə əlavələr edilməli idi: məsələn, seçkilərlə bağlkı şikayətlər və apelyasiya prosesində rayon məhkəmələrin rolu. Əslində, ATƏT/DTHİB-nin SMM-i görüşdüyü rayon məhkəmələrinin hakimləri oynadığı rolu bir-birindən fərqlənən formada qavradıqlarını söyləmişlər. MSK tərəfindən verilən bəzi təlimatlar Məcəllənin müddəaları ilə tam uyğun gəlmirdi və müəyyən hallarda, onlara zidd idi. Məsələn, Məcəllədə seçki komissiyasının məşvərətçi üzvünə kampaniya aparmağı qadağan etmir, halbuki verilmiş müvafiq təlimat buna aydın şəkildə imkan vermirdi.

Yığıncaq keçirmək Azadlığı haqqında yeni qanun potensial qaydada gözəçarpan yaxşılaşma kimi qəbul edilsə də, bu seçkilər zamanı onun həyata keçirilməsi əsl rəqabətin ümumi şəkildə çatışmaması səbəbindən az sayda lazımi sınaqlardan keçmişdir. Ən azı yalnız bir halda, həmin qanun Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən məhdudlaşdırılmış formada təfsir edilib həyata keçirilmişdir. Qanunda müvafiq icra orqanları tərəfindən mitinq və nümayişlərin keçirilməsi üçün xüsusi yerlərin ayrılacağı və həmin nümayişləri təşkil edən şəxslərin "seçə biləcəyi" "təklif olunmuş yerlərin" siyahısı çap ediləcəyi bildirilsə də, Bakı şəhərinin icra orqanları həmin siyahını tam hesab etmiş, orada olmayan yerlərdə müxalifət partiyaların nümayiş keçirmək vəsatətini rədd etmişlər.

## Seçkinin idarə edilməsi

Prezident seçkiləri Mərkəzi Seçki Komissiyası (MSK), 125 dairə seçki komissiyası (DSK) və təxminən 5326 məntəqə seçki komissiyasından (MnSK) ibarət üç səviyyədə fəaliyyət göstərən seçkini idarə edən qurum tərəfindən idarə olunur. Bundan əlavə, Azərbaycanın 27 ölkədəki diplomatik missiya və konsulluqlarında ölkədən kənarda 33 səsvermə məntəqəsi qurulmuşdur.

Seçki komissiyaları parlament çoxluğunu, azlıqda olan partiyaları və müstəqil namizəd kimi seçilmiş millət vəkillərini təmsil edən təyin olunmuş şəxslər vasitəsilə siyasi baxımdan mübahisəli olan düstur əsasında formalaşır. Qeyd olunan qrupların hər biri seçki komissiyası üzvlərinin ümumi sayının üçdə bir hissəsini təşkil edir. MSK üzvlərinin təyin olunmasında iştirak etməkdən imtina edən bəzi müxalifət partiyalarını nəzərə alaraq, bütün komissiyaların formalaşmasını seçkiyə hazırlığın ilkin mərhələsində natamam hesab etmək olar. Aşağı səviyyəli komissiyalardakı vakant vəzifələrə üzvlərin təyin edilməsi oktyabrın əvvəlində aparılmışdır. Yenicə təyin olunmuş üzvlərin komissiyaların işində fəal şəkildə iştirakını məhdudlaşdıra biləcək son təyin olunmaları nəzərə alaraq, görünür ki, bu hal komissiyaların seçkiyə hazırlaşmaq imkanlarına təsir göstərməmişdir.

Qeydə alınmış namizədlər və ya onları təyin etmiş partiyalar seçki komissiyasının məşvərətçi (səs verməyən) üzvünü təyin etmək imkanına malik idilər. MSK və DSK tərəfindən verilmiş məlumata əsasən, hakim Yeni Azərbaycan Partiyası (YAP) bütün komissiyalar üçün məşvərətçi üzvləri təyin etdi, halbuki, digər iştirakçılar gözəçarpan dərəcədə az sayda nümayəndələrini təyin edə bilmişlər.

Qayda və normaların tərtib edilməsində olduqca fəal olan MSK seçicinin əhatəli maarifləndirilməsi proqramını həyata keçirmiş və seçki işçilərini təlimlərdən keçirmək üçün kifayət dərəcədə səylərini göstərmişdir. MSK media, ATƏT / DTHİB-nin SMM və digər

təşkilatları dəvət etdiyi dövri iclaslarını keçirirdi. Bununla belə, bir çox hallarda iclasın gündəliyi iclasa az qalmış vaxtda paylanılırdı və üzvlər arasında müzakirələr qısa olurdu. MSK dövri olaraq yeniləşən, məlumatla dolu internet səhifəsini saxlayırdı və qəbul etdiyi bütün qərarları və təlimatları yubanmadan nəşr edirdi.

Bütövlükdə, seçkiyə hazırlıq işi bütün hüquqi vaxt çərçivəsinə uyğun olaraq rəvan aparılmışdır. DSK-lar yaxşı hazırlanmış və təşkil olunmuşdur, onların üzvləri isə, müvafiq biliklərə malik idi. Ümumilikdə, DSK bir sıra formal iclaslar keçirmiş və çox az sayda formal qərarları qəbul etmişlər.

MSK nəticələr haqqında MnSK protokollarının alınması, yoxlanılması və təsdiqi, eləcə də məntəqə səviyyəsində nəticələrin kompüterlər vasitəsilə göstərilməsi ilə bağlı DSK-ların işini tənzimləyən heç bir təlimatı qəbul etməmişdir. MSK ATƏT/DTHİB-nin SMM-nə bildirmişdir ki, məsələ ilə bağlı 2003-cü il prezident seçkilərindən qalan təlimat hələ də qüvvədədir, lakin müşahidəçilər həmin təlimatın vaxtında bir çox MnSK-lara çatdırılmamasını məruzə etmişlər. Seçki prosesinin bu cür vacib bir hissəsi kimi seçkidə konkret təlimatın MSK tərəfindən verilməməsi nəticələrin göstərilməsində müşahidə olunan nisbətən çox sayda problemlərin yaranmasına səbəb ola bilmişdir.

Sentyabrın sonundan başlayaraq, ilkin anlarda MSK-nın rəsmi qərarı və ya təlimatı olmadan, müxtəlif rayonlardakı seçki məntəqələrdə veb kameralar quraşdırılmışdır. MSK yalnız oktyabrın 8-də kameraların məqsədini aydınlaşdıran və seçki günü zamanı onlardan istifadə qaydalarını açıqlayan təlimatları qəbul etmişdir. MSK-nın bildirdiyinə görə, həmin seçki məntəqələrində səsvermə və hesablama prosedurların internet vasitəsilə izləmək imkanını verən həmin kameraların məqsədi prosesi daha şəffaf etmək və saxtalaşdırmanın qarşısını almaqdan ibarət idi. Bu baxımdan, kameraların MSK-nın təlimatından öncə quraşdırılması qeyri-adi görünürdü.

Seçki Məcəlləsinə edilən ən son əlavələr hərbçilər arasında səsvermənin təşkili ilə bağlı uzun müddətli məsələni adekvat şəkildə həll etməmiş və bu, problematik olaraq qalmışdır. Hərbi hissələrdə seçki məntəqələrinin yaradılması ümumi iş kimi saxlanılmışdır və Seçki Məcəlləsi əsasında MSK bu cür seçki məntəqələrin qurulmasını mümkün edən “xüsusi rejimli şəraitlərlə” hərbi hissələrdə bu məsələni həll etmək qərarını Müdafiə Nazirliyinə həvalə etmişdir.

Seçicilərin siyahıları qanuni vaxt çərçivəsinə uyğun olaraq ictimaiyyətin nəzarətinə çıxarılmışdır. MSK-nın rəyinə görə, MnSK-lar tərəfindən seçici siyahıların təsdiqlənməsindən sonra, sentyabrın 20-nə olan məlumat əsasında, qeydə alınmış seçicilərin ümumi sayı 4.731.879 olmuşdur. Seçicilərin qeydiyyatı həmin tarixdən sonra da davam etmiş, seçki günü zamanı da mümkün olmuşdur. Seçici siyahıların düzgünlüyünü gücləndirmək məqsədilə, MSK onları öz internet səhifəsində çap etmiş və həmin siyahıların seçicilərin özləri tərəfindən yoxlanımasını mümkün etmişdir. Seçicinin qeydə alınması barədə məlumatın verilməsi məqsədilə qaynar telefon xətti qurulmuşdur. Seçici siyahılarında ciddi problemlər və ya qeyri-düzgünlüklər barədə məlumat ATƏT / DTHİB-nin SMM-nə daxil olmamışdır.

## Namizədlərin qeydə alınması

MSK tərəfindən namizədliyi təsdiq edilmiş 21 gələcək namizəddən on nəfər tələb olunan qeydiyyat sənədlərini təqdim etmiş və qanuni vaxt çərçivəsində imza siyahılarını verə bilmişlər. Gələcək namizədlər ən azı 60 dairədə qeydə alınmış seçicilərin ən azı 40.000 imzasını toplamalı idilər. Seçki Məcəlləsinə edilmiş əlavələrə uyğun olaraq, imzaların 45.000-lik sayı azaldılmışdır. Lakin, eyni zamanda, imza əvəzinə maliyyə depozitini qoymaq imkanı həmçinin gələcək namizədlər üçün ləğv edilmişdir.

MSK Prezidentliyə yeddi namizədi qeydə almışdır: hazırkı Prezident – İlham Əliyev (YAP); İqbal Ağazadə (Ümid Partiyası); Hafiz Hacıyev (Müasir Müsavat Partiyası); Qüdrət Həsənquliyev (Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası); Fazil Mustafayev (Böyük Qurtuluş Partiyası); Fuad Əliyev (Liberal Demokrat Partiyası) və Qulamhüseyn Əlibəyli (namizədliyini özü irəli sürmüşdür).

İki gələcək namizədin qeydiyyatı MSK-nın ekspertlərdən ibarət işçi qrupu tərəfindən etibarsız hesab edilmiş imzaların həddindən artıq çox olması səbəbindən rədd edilmişdir. Etibarsız hesab edilən imzaların əksəriyyəti eyni şəxs tərəfindən hazırlanmış bir qrup imzalarla və ya şəxsiyyət vəsiqəsində olan məlumatlardakı səhvlər və buraxılmış məlumatlarla izah edilir[2]. Digər gələcək namizəd boş imza vərəqələrini təqdim etmişdir. Rəqabətçil seçki mühitinin çatışmaması müəyyən dərəcədə bu proseslə bağlı nəticələri çıxarmaq imkanını məhdudlaşdırdı.

## Seçki mühiti

Seçki mühiti ümumən olduqca zəif olmuş, seçki gününə yaxın az dərəcədə intensivləşən kampaniya ilə yadda qalmışdır. Müşahidəçilər kampaniyaya məhdud ictimai marağın olmasını qeydə almışlar. Seçkini boykot etmək və ya iştirak etməmək haqqında bəzi müxalifət partiyaların verdiyi qərar nəticəsində, hazırkı prezident aydın şəkildə kiçik ictimai dəstəyə malik olan bir qrup namizədlə üzləşmişdir. O, digər namizədlərə daha çox imkanları vermək arzusunu bildərərək, adi kampaniya işini aparmamaq qərarına gəlmişdir. Nəticədə, hazırkı prezident seçicilərlə kiçik interaktiv dialoqa girmiş və digər namizədlərlə birbaşa siyasi debatları aparmamışdır.

Avqustun 6-da, Prezident bütün Azərbaycanda özünün rəsmi portretlərini və onu təsvir edən reklam lövhələrini yığışdırmaq qərarını vermiş və bildirmişdir ki, bütün namizədlər üçün bərabər seçki kampaniyası şəraitlərini təmin etmək zəruridir. Keçmiş Prezident Heydər Əliyevi təsvir edən lövhələr və bəzi məqamlarda hazırkı Prezidentlə birgə olan şəkillər bir çox yerlərdə saxlanılmışdır.

Sentyabrın 17-də seçki kampaniyasının başlamasından sonra Yeni Azərbaycan Partiyası (YAP) hazırkı Prezidentin adından olduqca güclü və fəal kampaniyanı aparmış, çox sayda böyük nümayiş və konsertləri təşkil etmişdir. Partiya özünün lazımi qaydada təşkil olunmuş strukturları və üzvlərin gözəçarpan sayından yararlanmışdır. Digər namizədlərin apardığı kampaniyanın əsas forması kiçik miqyaslı tədbirlərdən və seçicilərlə qapıdan-qapıya görüşlərdən ibarət olmuşdur. Hazırkı prezidentdən başqa digər namizədlərin rayonlarda az sayda ofisləri və ya kampaniya imkanları var idi və bəzi bölgələrdə, hakim YAP-ın keçirdiyi

[2] Eyni şəxs tərəfindən hazırlanması zədd edilən etibarsız imzaların sayına gəldikdə, bu cür imzaların 9.016-sı cənab Güləliyev, 4.298-sı isə, cənab Ağaevliyə aid edilir.

kampaniya tədbirlərindən başqa, digərlərin çox az sayda hazırlıq işləri görülmüş və ya ümumiyyətlə kampaniya işi müşahidə olunmamışdır. Kampaniyanın görünən tərəfləri əsasən rəsmi qaydada seçilmiş lövhələrdə yapışdırılmış namizədlərin plakatları ilə məhdudlaşırdı. Seçki kampaniyası dövrünün sonuna qədər demək olar ki, bütün yeddi namizədin elanları bu və ya digər formada qoyulmuşdur.

Bütövlükdə, namizədlər böyük maneə olmadan seçicilərə öz mesajlarını çatdıra bilmiş və onların mitinqləri təşkil etmək xahişləri bir çox hallarda yerinə yetirilmişdir. Namizədlər özlərinin kampaniya tədbirlərinə vətəndaşları getməkdən yayındırmaq üçün ayrı-ayrı halları və ya öz nümayişlərini keçirmək üçün istənilən kampaniya yerlərinin həddindən artıq gec verildiyini bildirmişlər. Bundan əlavə, YAP-ın kampaniya tədbirlərinin maddi cəhətdən təşkil olunmasına (Saatlı və İmişli rayonlarında) yerli icra orqanlarının qeyri-dövri yardımın olmasını təsdiqləyən iki hal qeydə alınmışdır. Namizədlər Ağazadə və Əlibəyli media vasitəsilə plakatlarının təkrar şəkildə çırılmasından şikayətlənmişlər. Namizəd Hacıyev televiziya debatı zamanı bəzi dövlət rəsmilərini rüşvətxor adlandırdığına görə həyatına hədələrin aldığını bildirmişdir. Bu baxımdan, rəsmi şikayətlər verilməmişdir.

Şəxsən kampaniyanı aparmamaq arzusunu bildirməsinə baxmayaraq, Prezident yeni zavodların, yolların, məktəblərin, idman komplekslərin, muzeylərin və hava limanının açılış mərasimində iştirak edərək, hərbi hissələrə səfər edərək və əlillərə mənzilləri hədiyyə edərək, özünün rəsmi vəzifəsində ölkənin bir çox yerlərinə səfər etmişdir. Mediada geniş işıqlandırılan həmin səfərlər media və elektorat tərəfindən aparılan seçki kampaniyasına uyğunlaşdırılmışdır. Hazırkı prezidentin adi fəaliyyəti ilə onun kampaniyası arasında fərqin belə bir qaydada silinməsi 1990-cı il tarixli ATƏT-nin Kopenhagen Sənədinin 7.6 saylı paraqrafına zidd olaraq qeyri-bərabər kampaniya imkalarını yaratmışdır.

ATƏT/DTHİB-nin SMM insanların YAP-ın mitinqlərinə məcburən gətirilməsi barədə iddiaları almışdır və (onların bəziləri təsdiqlənmişdir). Bu isə, ATƏT-nin Kopenhagen Sənədinin 7.7 saylı paraqrafına uyğun deyil. İki halda, insanlar digər namizədin mitinqində iştirak etməyə məcbur edilmişlər. Universitet tələbələrin və məktəb formasında olan məktəb şagirdlərin sinif saatları zamanı öz müəllimləri ilə birgə YAP-ın mitinqlərində iştirak etdikləri müşahidə olunmuşdur. Bəzi hallarda, mitinq iştirakçıları ATƏT/DTHİB SMM müşahidəçilərinə təsdiq etmişlər ki, onlar YAP-ın toplantılarına müəllimlərin, Universitet rəhbərliyinin və ya rəhbərlikdə olan digər şəxslərin təzyiqi altında gəlmişlər və bu, adi hala çevrilmişdir. Bir neçə hallarda, həmin mitinqlərin keçirildiyi vaxtda məktəb və Universitet dərsləri ləğv edilmişdir. ATƏT/DTHİB SMM-nin müşahidəçiləri iştirakçıların öz istəyi əsasında mitinqlərdən getməsinin hüquq mühafizə orqanları və təşkilatçılar tərəfindən qarşısının alınması kimi bir neçə halların da şahidi olmuşlar. Bu cür hadisələr yerli icra orqanların seçki prosesinə müdaxilə etməməklə bağlı götürdükləri öhdəliyin səmimi olduğunu müəyyən mənada şübhə altına çəkir.

ATƏT/DTHİB SMM-nin müşahidəçiləri yerli hakimiyyət orqanları və/və ya seçki komissiyaları tərəfindən bir çox hallarda eyni iş yeri və ya təşkilat daxilində formalaşdırılmış seçicilər qruplarına görə məsuliyyət daşıyan və bir sıra hallarda YAP-la əlaqəsi olan müəyyən şəxslərdən ibarət şəbəkənin olmasını təsdiqləmişlər. Bu cür şəbəkənin zənn edilən məqsədi seçiciləri səs verməyə göndərmək və beləliklə, səsvermə nəticələrini artırmaqdan ibarət idi. Bu baxımdan, bəzi seçicilərin, xüsusən də, dövlət qulluğunda olan şəxslərin və məmurların təzyiq altında səsverməyə gedə biləcəyi və bu məsələdə azad seçim etmək iqtidarında olmaması ehtimalı narahatlıq doğuran məsələdir.

## Media

Azərbaycanda böyük sayda fəaliyyət göstərən kütləvi informasiya vasitələrinə baxmayaraq, söhbət aparılmış bir neçə şəxslər son illər ərzində media ilə bağlı vəziyyətin, xüsusən də medianın müstəqilliyi və ölkənin yayım sektorunda plülarizmin çatışmaması səbəbindən ağırlaşması barədə narahatlığını bildirmişlər[3]. ATƏT-in Media Azadlığı üzrə Nümayəndəsi "Azərbaycanda müstəqil media ilə bağlı ağır vəziyyətin" olması ilə əlaqədar öz narahatlığını bildirmişdir[4]. Hakimiyyət orqanlarını tənqid edən bir çox jurnalistə qarşı cinayət işi qaldırılmış və mülki qaydada iddialar sürülmüşdür. Bəzi hallarda, görülən tədbirlər nəticəsində, azadlıqdan məhrum etmə və böyük cərimələr haqqında məhkəmə qərarları qəbul edilmişdir. Prezident 2007-ci ilin dekabr ayında beş jurnalisti əfv etmişdir, lakin ən azı üç jurnalist hələ də məhbusxanada qalmaqdadır[5].

Seçki Məcəlləsində namizədlər üçün nəzərdə tutulan efir vaxtı İctimai TV və radioda dövri debatlar formasında ayrılmışdır. Bu, namizədlərə imkan yaratmışdır ki, öz seçicilərinə mesajını çatdırsınlar. Prezident şəxsən həmin debatlarda iştirak etməmək qərarına gəlmişdir və onu təmsil edən nümayəndələrini göndərmişdir. Debatlara əlavə olaraq, namizədlər ödənişli siyasi reklam və çap mediası vasitəsilə elektrorata öz fikirlərini çatdırmaq imkanına malik olsalar da, onlardan yalnız üçü bunu etmişdir.

Xəbərlər proqramlarında seçki kampaniyası yalnız məhdud şəkildə yayımlanmışdır. Bütün əsas televiziya kanalları, o cümlədən İctimai TV öz xəbərlərinin gözəçarpan hissəsini hakimiyyət orqanlarına və onların fəaliyyətinə, cənab İlham Əliyevin Prezident kimi işinin demək olar ki, bütün mediada işıqlandırılmasına həsr etmişlər. Hazırkı Prezidentin kampaniyasına xidmət edən mərasim tədbirləri və ya mənzillərin, maşınların və ya digər hədiyyələrin verilməsi kimi işlərin mediada verilməsi yolu ilə hakimiyyət orqanlarının apardığı iş və fəaliyyətinin müsbət şəkildə əks etdirmək kimi aydın görünən tendensiya müşahidə olunurdu. Hakimiyyət orqanlarının işi ilə bağlı tənqidi rəylər ümumən mövcud deyildi[6]. Monitorinq edilən bütün televiziya kanalları MSK-nın işini geniş şəkildə işıqlandırırdı.

Seçkiyə dörd həftə qalmış, İctimai TV özünün 51 faizlik siyasi və seçki xəbərlərinə həsr olunmuş proqram vaxtının (16 faizini) Prezidentin, (22 faizini) hökumətin, (3 faiz) Prezident Administrasiyasının və (10 faizini) YAP-ın fəaliyyətinə həsr etmişdir. Həmin xəbərlərin əksəriyyəti müsbət və ya neytral tonda verilmişdir. Bundan fərqli olaraq, bütün digər siyasi partiyalar, o cümlədən seçkiləri boykot etmək qərarını vermiş partiyaların fəaliyyətinə ümumilikdə efir vaxtının yalnız 12 faizi ayrılmışdır. Bütövlükdə, seçki prosesinin prosedur aspektlərinə intensiv diqqətin yetirilməsi tendensiyası hiss olunurdu və beləliklə, bu xəbərlərin 37 faizi MSK-nın fəaliyyətinə həsr edilmişdir. Seçki kampaniyasının rəsmi başlanma tarixindən etibarən İctimai TV-nin Prezidentin apardığı fəaliyyəti xəbərlər

---

3 ATƏT-in Media Azadlığı üzrə Nümayəndəsinin 15 noyabr 2007-ci il tarixli ATƏT-in Daimi Şurasında təqdim etdiyi Dövri Hesabata aşağıdakı səhifədə bax: http://www.osce.org/documents/rfm/2007/11/28110_en.pdf və Avropa Şurasının "Azərbaycan tərəfindən öhfəliklərin və vəzifələrin yerinə yetirilməsi" haqqında 1545 saylı qətnaməsinə aşağıdakı səhifədə bax: http://assembly.coe.int/Main/asp?link=/Documents/AdoptedText/ta07/ERES1545.htm

4 ATƏT-in Media Azadlığı üzrə Nümayəndəsi, istinad verilir.

5 ATƏT-in Media Azadlığı üzrə Nümayəndəsi,

6 Məsələn, bir neçə müxalifət partiyaların seçkilərdə iştirak etməmək barədə qərarları ilə bağlı xəbərlər yalnız İctimai TV və ANS-də yayımlanmışdır.

proqramında məhdud şəkildə işıqlandırmaq səyləri ilə yanaşı, ona həsr olunan efir vaxtının həcmi bütün digər namizədlərə verilən vaxtdan üç dəfə çox olmuşdur.

İctimai TV-dən fərqli olaraq, Seçki Məcəlləsinə son əlavələrin edilməsindən sonra dövlətin maliyyələşdirdiyi AzTV bərabər seçki kampaniyası şəraitlərini yaratmaq və bütün namizədlərə pulsuz efir vaxtını ayırmaq kimi hüquqi öhdəlikdən azad edilmişdir. Məzmunca sırf müsbət və ya neytral olan siyasi və seçki xəbərlərinin 94 faizini (bunun 72 faizi Prezidentə həsr olunmuşdur) hakimiyyət orqanların və hakim partiyanın xeyrinə ayıraraq, bu kanal aydın şəkildə qərəzli mövqeyi nümayiş etdirmişdir. Digər namizədlər barədə məlumat yalnız axır məqamlarda verilirdi, boykot edən partiyalar isə, demək olar ki, ümumiyyətlə bildirilmirdi. Xəbərlərin təxminən 6 faizi MSK-ya həsr edilmişdir. Özəl olan Space, Lider TV, ATV və Xəzər TV eyni yanaşmanı tətbiq etmişlər.

Digər özəl televiziya kanalı – ANS özünün xəbərlər proqramının əsas hissəsini həmçinin hakimiyyət orqanları və hakim partiyaya həsr etmişdir, lakin İctimai TV-də olduğu kimi, bu kanal həmçinin digər namizədlərə də müəyyən xəbər vaxtını ayırmışdır. 25 sentyarbdan etibarən, ANS-in xəbərlər proqramı müxtəlif mövzular ətrafında bütün namizədlərdən dövri müsahibələr götürmüşdür. (Prezident Əliyev nümayəndəsi tərəfindən təmsil olunmuşdur).

Çap mediada televiziyadan fərqli olaraq, müxtəlif rəylər verilmişdir. Dövlətin maliyyələşdirdiyi *Azərbaycan* və *Respublika* qəzetləri Prezidentə açıq dəstəyi nümayiş etdirmişlər. Özəl müxalifət yönümlü *Yeni Müsavat* qəzetində dövlət orqanları müəyyən dərəcədə tənqid edilmiş və cənab Ağazadə dəstəklənmişdir. *Zerkalo* adlı digər özəl qəzet özünün siyasi xəbərlərinin əsas hissəsini Prezident Əliyevə sərf etsə də, digər namizədlərə həmçinin müəyyən xəbər yerlərini ayırmışdır.

Seçki Məcəlləsinin kampaniyaya aid müddəalarına uyğunluğu nəzərdən keçirmək işinə yardım məqsədilə MSK öz üzvlərindən və müxtəlif media orqanlarının jurnalistlərindən ibarət media üzrə xüsusi işçi qrupunu yaratmışdır. Bu qrup əvvəlki seçkilərlə müqayisədə daha fəal olmuşdur; o, beş iclasını keçirmiş və altı şikayəti nəzərdən keçirmişdir. Onlardan biri YAP, qalan beşi isə, Ümid Partiyası tərəfindən verilmişdir. YAP təşviqat xarakterli disklərin paylanılması yolu ilə namizəd Ağazadə tərəfindən seçki kampaniyasının erkən başlanmasını iddia edirdi. Ümid Partiyası ilə bildirirdi ki, həmin materialların paylanılması artıq 2007-ci ildə başlanmışdır və həmin kompakt disklər "Siyasi Partiyalar haqqında" Qanun əsasında paylanılması icazə verilən partiya haqqında məlumatlardır[7]. Qrup MSK-ya cənab Ağazadəyə xəbərdarlıq etmək təklifini vermişdir. MSK-nın qəbul etdiyi qərarında cənab Ağazadəyə "seçki kampaniyası zamanı qanunvericiliyin tələblərinə dəqiq şəkildə riayət etmək" təlimatı verilmişdir.

Ümid Partiyasının verdiyi bütün şikayətlər isə, əsassız hesab edilmişdir. Bir halda, Ümid Partiyası dövlət və bələdiyyə rəsmilərinin kampaniyada iştirakını qadağan edən MSK-nın qərarını pozmuş və YAP-ın mitinqində iştirak edən iki yüksək rütbəli dövlət rəsmisindən şikayətlənirdi. İşçi qrup qanunda nəzərdə tutulan qaydada həmin rəsmilərin kampaniyada iştirak etmələrinin sübutlarını aşkar etməmişdir[8]. Qrupun rəhbəri bildirmişdir ki, yüksək

[7] Siyasi Partiyalar haqqında Qanunun 12 maddəsində deyilir ki, "siyasi partiyalar öz məqsədləri və fəaliyyəti barədə məlumatı azad şəkildə yaya bilər".

[8] Seçki Məcəlləsinin 1.1.13 maddəsində deyilir ki, "seçkiqabağı təşviqat – vətəndaşların və siyasi partiyaların seçiciləri seçkilərdə iştiraka, bu və ya digər namizədlərin lehinə səs verməyə (səs verməməyə) çağıran və ya çağırmaq məqsədi daşıyan fəaliyyəti";

rütbəli rəsmilər adi seçici kimi eyni hüquqlara malikdirlər və buna görə də, hər hansı namizədə səs verməklə bağlı birbaşa müraciətlərin edildiyi halları istisna etməklə, onlara kampaniya tədbirlərində iştirak etmək imkanı verilməlidir.

İştirak edən bütün üzvlərin müzakirəsindən və səs verməsindən sonra, işçi qrup MSK tərəfindən qəbul edilmiş qərarlar üçün əsas kimi xidmət edən altı rəyi qəbul etmişdir. Həmin qərarlardan dördü hüquqi vaxt müddəti keçdikdən sonra qəbul edilmişdir.

**Şikayətlər və apelyasiya iddiaları**

Oktyabrın 14-nə olan vəziyyətə əsasən, MSK-ya yeddi şikayət təqdim edilmişdir. Cənab Arif Əliyevin namizəd kimi qeydə alınmaması ilə bağlı bir şikayət yenicə qurulmuş ekspert qrupu tərəfindən araşdırılmışdır. Qalan altı şikayət isə, seçki kampaniyasına aid olmuş və MSK-nın media ilə iş üzrə qrup tərəfindən nəzərdən keçirilmişdir (əvvələ bax). Namizəd Hafiz Hacıyev tərəfindən təhqir olunduğunu iddia edən cənab Ağazadənin verdiyi şikayət qeyri-düzgünlüyünə görə MSK tərəfindən rədd edilmişdir. Bununla belə, MSK qanunla nəzərdə tutulan qaydada bu məsələni məhkəməyə göndərməmişdir. ATƏT/DTHİB-nin SMM-yə MnSK-lara təqdim edilmiş yalnız altı şikayət barədə məlumat verilmişdir və onların hamısı rədd edilmişdir. Həmin hallarda MSK və ya məhkəmələrə əlavə apelyasiya şikayətləri verilməmişdir.

Dörd şikayət Bakının Apelyasiya Məhkəməsi tərəfindən baxılmış və rədd edilmişdir: onlardan üçü üzrə apelyasiya iddiası sonradan Ali Məhkəməyə təqdim edilmişdir. Düzgün imzaların kifayət sayda olmaması səbəbindən namizəd kimi qeydə alınmaması haqqında MSK və Apelyasiya Məhkəməsinin qərarlarına qarşı apelyasiya iddiası Ali Məhkəməyə cənab Mais Güləliyev tərəfindən verilmişdir. MSK nümayəndəsinin iştirak etmədiyi Ali Məhkəmənin iclasında həmin iddia rədd edilmişdir. Keçmiş prezident seçkilərindən qalan borclarına görə seçki kampaniyası üçün vəsaitlərdən məhrum olmuş namizəd Qüdrət Həsənquliyev MSK-nın bu qərarına qarşı məhkəmədə iddia qaldırmış, lakin onun ərizəsi təmin edilməmişdir. Borc hesab edilən pulun qaytarılması ilə bağlı MSK ilə əldə olunmuş qeyri-rəsmi razılaşmadan sonra, cənab Həsənquliyevin Ali Məhkəməyə verdiyi növbəti apelyasiya ərizəsi təmin edilmişdir. Bu hadisədən sorna, cənab Hacıyev Bakının Apelyasiya Məhkəməsinə eyni ərizə ilə müraciət etmiş və onun müraciəti həmçinin təmin edilmişdir.

Şikayətlər və apelyasiya ərizələri üzrə çıxarılmış qərarlarda MSK və məhkəmələr onların əksər hissəsi üçün əhatəli hüququ əsaslandırmanı verməmişlər.

MSK və DSK daxilində ekspert qruplarının yaradılması, öz növbəsində, təkmilləşdirmə addımı olmaqla yanaşı, komissiyaların hazırkı üzvlərindən və komissiyaların katibliyində işləyən hüquqşünaslardan ibarət həmin qrupların hazırkı tərkibi əvvəlcə nəzərdə tutulduğu kimi onların faktları araşdırmaq imkanlarını gücləndirmir. Ekspert qrupların statusu və fəaliyyəti lazımi qaydada tənzimlənmədiyi halda, media ilə iş üzrə işçi qrupunun rolu Məcəllə və MSK-nın təlimatlarında qeyri-aydın olaraq qalır, çünki Məcəllədə seçkinin idarə olunmasında şikayətləri araşdıran yeganə qurumlar kimi yalnız ekspert qrupları göstərilir.

**Qadınların iştirakı**

Qadınların seçkilərdə iştirakı üçün nə hüquqi maneələr, nə də ki, onların iştirakını təşviq etməkdə hüquqi müddəalar var. Siyasətdə bir neçə tanınmış qadınların olmasına baxmayaraq,

qadınların siyasi həyatda iştirakı, xüsusən də, yüksək səviyyəli vəzifələrdə işləməsi ümumən məhduddur. Hazırkı Parlamentdə, 125 millət vəkilindən 13-ü qadındır. Bu seçkilərdə qadın namizəd iştirak etmirdi və qadınların hüquqları və ya məsələləri seçki kampaniyasında nadir hallarda nəzərdən keçirilirdi. Yüksək səviyyəli seçki orqanlarında qadınlar lazımınca təmsil olunmayıb: MSK-nın 18 üzvündən dördü qadındır, DSK-ların 125 sədri arasında isə, cəmi üç qadın var. Seçki günü BSMM müşahidəçilərinin səfər etdiyi MnSK-ların 21 faizinə qadınlar sədrlik edirdi və onların üzvlərinin 34 faizi qadınlar idi.

## Yerli müşahidəçilər

Hüquqi çərçivə ATƏT qarşısında götürülmüş öhdəliklərə uyğun olaraq, yerli və beynəlxalq müşahidə imkanlarını təmin edir. Bitərəf seçki müşahidəsini aparan iki yerli QHT – Seçkilərin Monitorinq Mərkəzi (SMM) və Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafı naminə Assosiasiya (AVCİA) – uzun müddətli müşahidəni aparmışlar. Digər iki QHT koalisiyası – "Azad, Şəffaf və Ədalətli Seçkilər Uğrunda" və "2008 Seçkilər üzrə QHT Koalisiyası" – seçki günü işləyəcək çox saylı müşahidəçilərini yerləşdirmişlər. SMM 800-dən çox seçki məntəqəsində səslərin paralel hesablanmasını həmçinin aparmışdır.

Müşahidəçilərin qeydiyyatı yetərli olmuşdur və 10.000-dən artıq yerli bitərəf mşüahidəçi MSK və DSK-ların akreditasiyasından keçmişdir. Bununla belə, ən böyük yerli müşahidəçi təşkilatlarından biri sayılan SMM-nin QHT kimi qeydiyyatı Ədliyyə Nazirliyinin vəsatəti əsasında Bakının Rayon Məhkəməsi tərəfindən 14 may tarixində ləğv edilmişdir. Avqustun 12-də, SMM yenidən qeydiyyatdan keçmək üçün Ədliyyə Nazirliyinə müraciət etmiş, lakin cavab almamışdır. Bu təşkilatın müşahidəçiləri fərdi qaydada qeydiyyatdan keçməyə qadir olsalar da, seçki gününə az qalmış onların bəzilərinə təzyiq göstərilmişdir ki, təşkilatın adından müşahidə etməsinlər.

## Seçki günü

Seçki günü ümumilikdə sakit və dinc keçmişdir. BSMM-in müşahidə hesabatları səsvermədə seçicilərin böyük sayda iştirakını nümayiş etdirir; MSK bu göstəricinin 75.6 faiz səviyyəsində olduğunu bəyan etmişdir. MSK oktyabrın 16-da səhər saat 2-yə qalmış təxminən 2.300 seçki məntəqəsindən alınan nəticələri özünün internet səhifəsində yerləşdirmiş və seçki gecəsi ərzində onların yeniləşməsini davam etdirmişdir.

Səfər edilmiş seçki məntəqələrinin 88 faizində açılış prosedurları müsbət qiymətləndirilmişdir. Bununla belə, prosedural çatışmazlıqlar, o cümlədən seçki qutularında möhürlərin seriya nömrəsinin (19 faiz) qeyd edilməməsi tez-tez qeydə alınmışdır. BSMM müşahidəçiləri səfər etdikləri seçki məntəqələrinin 94 faizində səsvermə prosesinin yaxşı və ya çox yaxşı kimi qiymətləndirmiş, onu ümumiyyətlə yaxşı və etibarlı şəkildə təşkil olunduğunu qeyd etmişlər. MnSK və seçicilər tərəfindən prosedurların qavranılması müsbət kimi qiymətləndirilmişdir. Seçici siyahıların yaxşılaşdırılmış keyfiyyəti əlavə siyahılara az sayda seçicilərin yazılması ilə nümayiş etdirilmişdir.

Ümumilikdə, onların müsbət qiymətləndirilməsinə baxmayaraq, BSMM müşahidəçiləri bir sıra prosedur pozuntularını qeydə almışlar. Onlardan ən çox yayılan hallar təkrar səsvermənin qarşısının alınması ilə bağlı olmuşdur: səfər edilmiş seçki məntəqələrinin 12 faizində seçiciləri bir çox hallarda barmağın gözə görünməz mürəkkəbə batırılması ehtimalı hər zaman yoxlanılmırdı və 7 faiz məntəqələrdə mürəkkəbə batırılma hər zaman tətbiq edilmirdi.

Digər pozuntular aşağıdakılardan ibarət olmuşdur: seçki qutuları lazımi qaydada möhürlənməmişdir (7 faiz), seçici siyahısında bir sıra oxşar görünən imzaların olması (9 faiz), kiminsə adından və təkrar səsvermə halları (hər biri 2 faiz təşkil etmişdir) və eyni şəxsin bir çox seçicilərə "yardım etməsi" halları (2 faiz) olmuşdur. Qrupla səsvermə səfər edilmiş seçki məntəqələrinin 11 faizində müşahidə olunmuşdur. Səfər edilmiş seçki məntəqələrinin 11 faizində seçicilərin heç də hamısı öz seçki bülletenlərində məxfi şəraitdə qeyd aparmamışlar. BSMM müşahidəçiləri yeddi seçki məntəqədə aydın şəkildə seçki qutularına bülletenlərin doldurulmasını müşahidə etmişlər. Onlar həmçinin altı seçki məntəqəsindən məruzə etmişlər ki, barmağı mürəkkəbə batırılmış seçicilərə səs vermək imkanı verilmişdir. Seçki məntəqələrinin 7 faizində prosesin bütün mərhələləri MnSK və ya müşahidəçilərə tərəfindən müşahidə olunmamışdır. BSMM müşahidəçiləri müəyyən namizədə səs vermək üçün yalnız ayrı-ayrı qorxudulma və ya seçicilərə təsir etmək cəhdlərini (bir halda bu MnSK-nın sədri tərəfindən edilmişdir) qeydə almışlar. Kameraların quraşdırıldığı səfər edilmiş seçki məntəqələrinin 11 faizində BSMM müşahidəçiləri bildirmişlər ki, kameraların yerləşdiyi yer səsvermənin məxfiliyini tam mənada təmin etməyə bilərdi. Deмək olar ki, hər on məntəqədən birində orada olan şəraitlər səsvermənin aparılması üçün qeyri-adekvat hesab edilmişdir.

Yerli bitərəf müşahidəçilər seçki məntəqələrinin 79 faizində olmuşlar, lakin bir çox hallarda hansı təşkilatı təmsil etdiklərini deyə bilmirdilər. Səfər edilmiş seçki məntəqələrinin 5 faizində icazəsiz şəxslərin olması qeydə alınmışdır; bu cür şəxslərin MnSK-ların işinə müdaxiləsi və ya onların işinin istiqamətləndirilməsi 12 halda qeydə alınmışdır. BSMM müşahidəçiləri səfər etdikləri seçki məntəqələrin 6 faizində öz işini maneəsiz şəkildə yerinə yetirməkdən məhrum olduqlarını bildirmiş, 4 faizində isə, MnSK-lar onlarla tam əməkdaşlıq etməmişlər.

Səslərin hesablanması az dərəcədə müsbət kimi qiymətləndirilmişdir: BSMM müşahidəçilərin 22 faizi onu pis və ya çox pis hesab etmişdir. MnSK-ların gözəçarpan nisbəti seçici siyahılarında imzaların sayının hesablanması və cədvəldə mütləq yoxlanılmanı kimi əsas tutuşdurulma prosedurlarını yerinə yetirməmişlər. Bir çox hallarda, səsvermədə şəffaflıq çatışmırdı. Hesablanmanın müşahidə olunduğu seçki məntəqələrinin 18 faizində müşahidəçilər seçki bülletenlərin necə işarələndiyini aydın şəkildə görə bilmədilər. Müşahidə olunmuş hesablamaların 12 faizində bülletenlər rasional və ardıcıl şəkildə müəyyən edilməmişdir. Müşahidə olunan seçki məntəqələrinin 8 faizində MnSK-nın üzvlərindən başqa kənar şəxslər hesablanmada iştirak edirdilər. Müşahidə olunan hesablamaların 7 faizində BSMM müşahidəçiləri seçici siyahısında olan məlumatlarla, nəticələr və ya protokollarla manipulyasiya hallarını, o cümlədən bir halda səslərin digər namizədə yenidən yazılmasını qeyd etmişlər.

Müşahidə olunan hesablamaların 23 faizində MnSK-lar nəticələrin protokola daxil edilməsində problemlərlə üzləşmişlər, çünki onların bəzilərində həmin protokollar tələb olunan qaydada diyirçəkli qələmlə doldurulmamışdır. Bir çox hallarda BSMM və yerli müşahidəçilər özlərinin xahişi əsasında nüsxələri almışlar; lakin, müşahidə olunan seçki məntəqələrinin 37 faizində MnSK nəticələri əks etdirən protokolları ictimaiyyətin nəzərinə çıxarmamışdır. Bir sıra müşahidəçilər məruzə etmişlər ki, hesablama başa çatdıqdan və protokol doldurulduqdan sonra, MnSK aydın səbəb olmadan seçki materialların DSK-ya çatdırılmasını yubatmışdır.

BSMM müşahidəçiləri 125 DSK-dan 124-də nəticələrin göstərilməsi prosesini izləmişlər. DSK-ların 25-də, proses pis və ya çox pis kimi qiymətləndirilmişdir. Müşahidə olunan digər DSK-larda düzgün prosesdən fərqli olaraq, həmin DKS-lardakı proses qarışıq və qeyri-şəffaf formada aparılmış, müşahidəçilər isə, bütün prosesi izləmək imkanına malik olmamışlar. 32 halda, müşahidəçilər nümayiş etdirilən nəticə protokollarının nüsxələrini almamışdır. Məntəqə səviyyəsində nəticələrin yoxlanılması ilə bağlı əsas prosedurlara və onların nəzərdən keçirilməsi qaydalarına bir çox hallarda riayət olunmurdu.

***Bu hesabatla həmçinin Azərbaycan dilində tanış olmaq olar.***
***Lakin, ingilis dilində olan variantı yeganə rəsmi sənəddir.***

## MİSSİYA HAQQINDA MƏLUMAT VƏ TƏŞƏKKÜRLƏR

ATƏT/DTİHB Seçki Müşahidəsi Missiyası (SMM) 2008-ci ilin sentyabr ayının 1-də paytaxtda və 10 regional mərkəzlərdə fəaliyyətə cəlb olunmuş 40 ekspert və uzun-müddətli müşahidəçi ilə Bakıda öz işinə başlamişdır. Seçki günü Beynəlxalq Seçki Müşahidəsi Missiyasının (BSMM) 439 qısa müddətli müşahidəçiləri, onlardan Avropa Şurasının Parlament Assambleyasından 31 və Avropa Parlamentindən 13 nəfərlik nümayəndə heyətləri yerləşdirilmişdir. Ümumilikdə, ATƏT-in 43 iştirakçı dövlətlərindən müşahidəçilər gəlmişdir. BSMM bütün ölkə üzrə 5.326 seçki məntəqəsindən 1200-dən çox məntəqədə və səsvermənin nəticələrinin hesablanmasını müşahidə etmək məqsədilə səsvermə məntəqələri bağlandıqdan sonra təxminən 143 seçki məntəqəsində səslərin hesablanması prosesini müşahidə etmişdir.

Cənab Andres Herkel (Estoniya) Avropa Şurasının Parlament Assambleyasının nümayəndə heyətinə rəhbərlik etmişdir və xanım Ann Mari İsler Beqən (Fransa) Avropa Parlamentinin nümayəndə heyətinə rəhbərlik etmişdir. Səfir Boris Frlets (Sloveniya) ATƏT / DTİHB-in Seçkiləri Müşahidə Missiyasına başçılıq etmişdir.

BSMM Azərbaycan Respublikası Hökumətinə seçkiləri müşahidə məqsədilə etdiyi dəvətə, akkreditasiya sənədlərinin təmin edilməsinə görə Mərkəzi Seçki Komissiyasına, göstərdikləri yardım və əməkdaşlığa görə Xarici İşlər Nazirliyinə, digər dövlət və yerli hakimiyyət orqanlarına öz dərin təşəkkürlərini bildirmək istəyir. BSMM həm də ATƏT-in Bakı Ofisinə və digər beynəlxalq təsisatlara etdikləri əməkdaşlıq və verdikləri dəstəyə görə təşəkkür etmək istəyir.

Əlavə məlumat üçün aşağıdakı əlaqə məlumatlarından istifadə edin:

- Cənab Yens Eşenbaxer, ATƏT/DTİHB - Mətbuat Katibi (+48-603-683 122), yaxud cənab Conatan Stounstrit, ATƏT/DTİHB-in Seçkilər üzrə Məsləhətçisi, Varşava (tel: +48-22-520-0600);
- Cənab Vladimir Dronov, Avropa Şurasının Parlament Assambleyası (tel: +33- 6622 65489);
- Cənab Tomas Qrunert, Avropa Parlamenti (Tel: +32 498 983 369);

**ATƏT/DTİHB SMM-nin ünvanı:**
Caspian Plaza III, 8-ci mərtəbə
Bakı, Cəfər Cabbarlı küçəsi, 44
Telefon: + 994-12-436 7501-7504
Faks: +994-12-436 7506
Elektron poçt ünvanı: office@odihr.az